**AZƏRBAYCAN RESPUBLİKASI**

**MALİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASININ**

**QƏRARI**

**№ Q-24**

**Bakı şəhəri** **“16” dekabr 2016-cı il**

**Azərbaycan Respublikası Maliyyə Nazirliyinin bir sıra normativ hüquqi aktlarının ləğv edilməsi barədə**

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəliFərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin aşağıdakı normativ hüquqi aktları ləğv edilsin:

1.1. “Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və istifadəsi, dövriyyəsi fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament”in müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2013-cü il 09 yanvar tarixli Q-01 nömrəli Qərarı;

1.2. “Ciddi hesabat blanklarının hazırlanması fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətlərin və sənədlərin qəbulu üzrə inzibati reqlament”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2013-cü il 15 fevral tarixli Q-09 nömrəli Qərarı;

1.3. “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2013-cü il 15 fevral tarixli Q-09 nömrəli qərarı ilə təsdiq edilmiş “Ciddi hesabat blanklarının hazırlanması fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament”də dəyişikliklər edilməsi

haqqında" Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2015-ci il 12 oktyabr tarixli Q-20 nömrəli Qərarı;

1.4. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2013-cü il 09 yanvar tarixli Q-01 nömrəli qərarı ilə təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və istifadəsi, dövriyyəsi fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"də dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2015-ci il 12 oktyabr tarixli Q-21 nömrəli Qərarı.

**2.** Nazirliyin aparatının Uçot siyasəti şöbəsinə və Qiymətli Metallar və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətinə tapşırılsın ki, bu qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

**3.** Bu qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Kollegiyanın sədri,**

**Azərbaycan Respublikasının maliyyə naziri** **Samir Şərifov**